# “Yazıçının gündəliyi”



Məmməd Qocayev
*Professor*

1873-cü ildən başlayaraq Dostoyevski özünün “Yazıçının gündəliyi” adlı publisistik yazılarını, məqalə və felyetonlarını redaktoru olduğu “Qrajdanin” jurnalında çap etdirməyə başlayır. 1876-cı ildən “Yazıçının gündəliyi” elə həmin ad altında ayrıca jurnal kimi nəşr olunmağa başlayır ki, onun da həm naşiri, həm redaktoru, həm də müəllifi Dostoyevskinin özü idi. Bu mətbu orqan öz məzmunu etibarilə bir növ ensiklopedik xarakter daşıyırdı. Burada Dostoyevski dövrün aktual və maraq doğuran məsələlərinə öz yazıçı münasibətini bildirirdi. “Yazıçının gündəliyi” tez bir zamanda oxucular arasında böyük marağa səbəb oldu və Dostoyevski öz oxucularından çoxlu sayda məktublar almağa başladı ki, onların da bəzilərinə yazıçı jurnalın səhifələrində cavab yazırdı. Dostoyevski bir növ geniş oxucu auditoriyası ilə dialoqa başladı. “Yazıçının gündəliyi”nin səhifələrində Dostoyevskinin bəzi bədii əsərləri, yəni kiçik həcmli hekayələri də çap olunurdu. Məsələn, “Paxla”, “Həlim qız”, “Gülməli adamın yuxusu”, “Mujik Marey” və s. əsərlər ilk dəfə məhz “Yazıçının gündəliyi” jurnalında çap olun-muşdu. Bu mətbu orqan ta ki 1881-ci ilədək fasilələrlə işini davam etdirdi.

“Yeniyetmə” romanından sonra Dostoyevskinin “Yazıçının gündəliyi” publisistik yazıları bir növ onun “Karamazov qardaşları” romanına hazırlıq mərhələsi kimi də qiymətləndirilə bilər. Burada Dostoyevskinin köhnə insanlar (Gertsen, Belinski) haqqında düşüncələri, onların sosializmə, ateizmə, dinə, İsaya olan münasibəti barədə oxuyanda bu ideyaları “Karamazov qardaşları” romanında, xüsusilə də İvan Karamazovla Alyoşa Karamazov arasındakı söhbətlərdə duymamaq olmur. “Köhnə insanlar” məqaləsində (1873) Dostoyevski Gertseni kübar cəmiyyətinin üzvü kimi “anadangəlmə mühacir” adlandırır və qeyd edir ki, Gertsen mühacirətə getməzdən əvvəl, hələ vətəndə “mühacir kimi doğulmuşdu”, yəni o, anadangəlmə, öz sosial mühiti etibarı ilə həmişə və təbii olaraq xalqdan ayrı olmuşdur. Məhz xalqdan ayrı düşmək onu dindən, xalq mənəviyyatından və nəhayət, Allahdan ayrı düşməyə gətirib çıxarmışdı. Allahı itirən kəs isə sosialist olmaya bilməz, çünki sosializm birbaşa ateizmdən başlanır. Ona görə də Gertsen kimi şəxsiyyətlərin rus xalqına münasibəti kifayət qədər mürəkkəbdir. Onlar real rus xalqını sevmirlər, onların sevdikləri rus xalqı mücərrəd, təbiətdə mövcud olmayan bir xalqdır. Dostoyevskinin “Yeniyetmə” əsərinin qəhrəmanlarından biri - Versilov - Gertseni çox xatırladır və çox güman ki, məhz Gertsen bu obrazın prototipi olmuşdur.

Belinskiyə gəlincə, Dostoyevski onu da yüksək dəyərləndirir və eyni zamanda onunla özü arasındakı fikir ayrılığından da danışır. Belinski dahi humanist olmaqla yanaşı, həm də ateist idi. Humanist olaraq Allahı, yəni humanizmin və mənəviyyatın əsasını, inkar etmək - bu çox acınacaqlı və dərin bir ziddiyyətdir. Dini mənəviyyatı inkar edərək, onun yerinə ateist mənəviyyatını (əslində, isə ateist mənəviyyatsızlığını) qoymaq özü dərin ziddiyyətdən xəbər verir. Belinskinin ideyalarının və onun sosializm nəzəriyyəsinin zəif cəhətini Dostoyevski məhz ateizmdə görür. Ateizm olmadan sosializm ideyası öz mənasını və məzmununu itirir, çünki sosializm insanın öz əqli və iradəsi gücünə yer üzündə yaratmaq istədiyi cənnətdir ki, bu da xam xəyaldan savayı bir şey deyildir. İsanın müqəddəs varlığını, onun ilahi simasını və ideal şəxsiyyətini inkar etdikdən sonra yerdə səcdə ediləcək heç nə qalmır, sosializm idealsız və mənəviyyatsız bir utopiyaya çevrilir. Dostoyevski xatırlayır ki, Belinski İsaya da rəhm etmədən xristianlığı inkar edirdi. Belə hallarda Belinski məni göstərərək qeyd




edirdi ki, o hər dəfə İsadan danışanda, onu inkar edəndə mənim sifətim dəyişir, sanki ağlamaq istəyirəm. Bu yerdə İvan Karamazovla Alyoşanı yada salmamaq olmur. Dostoyevski Belinskini həm də ən tələskən sosialist adlandırırdı. O, təəssüf edirdi ki, sevdiyi və təbliğ etdiyi sosializmi görə bilməyəcək.

“Mühit” adlanan digər məqalədə Dostoyevski XIX əsrin 70-ci illərində Rusiyada təsis edilmiş prisyajnı iclasçıların iştirakı ilə keçirilən məhkəmədən söz açır və bu məhkəmələrdə cinayətkarlara, onların cinayətlərinin səbəbkarı kimi eybəcər mühiti göstərərək, bəraət verilməsinin əleyhinə çıxış edir. Dostoyevski on il Sibirdə sürgündə olmuş bir adam kimi cinayətlərin və cinayətkarların hər üzünü görmüşdü, cinayətkara qarşı xalq mərhəmətini də yüksək qiymətləndirirdi. O qeyd edir ki, rus xalqı cinayətkarı “bədbəxt” adlandırır, ona sədəqə verir, amma eyni zamanda cinayəti cinayət adlandırır və cinayətkara verilmiş cəzanı həm xalq, həm də cinayətkarın özü ədalətli hesab edir. Məhkəmənin cinayətkara bəraət qazandırması, səbəb kimi mühitə istinad etməsi cinayətkarı hər bir mənəvi məsuliyyətdən azad etmək deməkdir. Bəli, mühit eybəcərdir, insanı çıxılmaz vəziyyətə salır, bununla belə cinayətin mənəvi və hüquqi məsuliyyəti insanın üzərinə düşür, heç bir mühit və digər səbəb onu bu məsuliyyətdən azad edə bilməz. Hətta cinayətkar üçün məhkəmənin hökmü daha vacibdir, nəinki onun bəraəti. Cinayətə görə cəza çəkmək mənəvi yüngüllük gətirir, cəzasızlıq isə cinayətkarı mənəvi işgəncələrə düçar edir. Yada salaq, nədən silisçi Porfiri Petroviç Raskolnikovun cinayətkar olduğunu bilərək, lakin əlində faktın olmaması ucbatından onu həbs etmir. Ona görə ki, Porfiri Petroviç düzgün hesablamışdı ki, Raskolnikov azadlıqda gəzərək mənəvi işgəncədən cana gələcək və nəhayət, özü gəlib həqiqəti söyləyəcək. Elə belə də oldu - Raskolnikov cinayəti özü boynuna aldı.

Xalqın cinayətkarı “bədbəxt” adlandırmasında dərin bir hikmət də vardır. Xalq sövq-təbii olaraq, təhtəlşüur səviyyəsində hiss edir ki, hər bir cinayətdə təkcə cinayətkar deyil, hamı günahkardır. Xalq duyur ki, əgər o özü və hamı elliklə başqa cür olsaydılar, yəni mənəvi cəhətdən saf və günahsız olsaydılar, onda heç bir cinayət də baş verməzdi. Cinayətkarı “bədbəxt” adlandırmaqla xalq bir növ anlayır ki, onun yerində hər bir kəs ola bilərdi və indi bu “bədbəxtçilik” onun bəxtinə düşüb.

Bu yerdə İncildən bir rəvayət yadıma düşdü. Günah işlətmiş Mariyanı meydanda camaat daşqalaq edib öldürməyə hazırlaşarkən, oraya İsa gəlib çıxır. Camaatı saxlayıb, bu insanlara müraciət edərək deyir ki, qoy ilk daşı o kəs atsın ki, o, özünü günahsız hesab edir. Hamı əllərindəki daşları yerə atıb dağılışır. İsa Mariyaya yaxınlaşıb onu buraxır və deyir ki, o, bir də belə işlər tutmasın. İsa Mariyanı ona görə bağışlamadı ki, o günahsızdır, ona görə bağışladı ki, onu cəzalandıracaq adamlar günahsız deyildirlər. Yəni Mariyanın günahını hamı bölüşməlidir, hamı özünü bu günahda müqəssir bilməlidir, çünki bu insanlar saf və günahsız olsaydılar, Mariyanın günahı da baş verməzdi.

Bir nəfər cinayətkarın günahı hamıya aiddir, hər bir kəs hər bir günahda müəyyən mənada müqəssirdir. Bu ideyanı sonralar Dostoyevski “Karamazov qardaşları” romanında Zosima atanın qissəsində bir daha təkrar edəcəkdir. Ciddi və ədalətli məhkəmə hökmü, ədalətli cəza cinayətkarın mənəvi durumunu ağırlaşdırmır, əksinə, yüngülləşdirir. Cinayətkara rəhm etmək, onu yazıqlamaq, onun halına acımaq olar, lazımdır, yəni onu insanlıq sırasından çıxarmaq olmaz, amma bununla belə, cinayət olduğu kimi adlandırılmalı, dəyərləndirilməli və cəzalandırılmalıdır. Günahkara güzəşt etmək isə həm hüquqi, həm də mənəvi cəhətdən haqsızlıqdır. Günahkarı yazıqlamaq isə onu öz yerinə, özünü isə onun yerinə qoya bilmək deməkdir. Yəni biz birik, hamımız insanıq, hamımız günahkarıq. Xristian dini insanı mühitin qulu hesab etmir, mənəvi məsuliyyəti onun özündə görür. Bununla da din insanı azad məxluq kimi qəbul edir. Öz hərəkəti üçün məsuliyyət daşımaq - məhz bu, azadlığın ifadəsidir. Məsuliyyəti mühitin üstünə atmaq, hər bir azadlıqdan məhrum olmaq və mühitin quluna çevrilmək deməkdir.

“Vlas” adlı məqalədə Dostoyevski öz yaradıcılığının və mənəvi düşüncələrinin əsas mövzularından biri olan iztirab və tövbə məsələsinə toxunur. Dostoyevski yazır ki, rus xalqının ən köklü ruhi tələbi iztirab tələbidir. Bu istək rus xalqının əzəli ruhi istəklərindən biri və ən güclüsüdür. O hətta öz sevincində də bir iztirab qarışığı tapır. Rus xalqı sanki öz iztirablarından həzz alır. Bunu mazoxizm də adlandırırlar. Dostoyevski rus sərxoşu ilə alman sərxoşunu müqayisə edərək qeyd edir ki, sərxoş alman özündən razı halda bir qürur duyur, sərxoş rus isə qüssədən içir və ağlayır. Ağlayır ona görə ki, o daim daxilən özündən narazıdır və daim işgəncələr içində bulunur. Mənən özünü ittiham etmək, mənəvi işgəncələr keçirmək və axır-axırda tövbə etmək rus xalqının ümdə xüsusiyyətidir. Bütün bunların kökündə isə rus xalqının İsaya olan sönməz məhəbbəti, onun qarşısında səcdə etməsi, onun müqəddəs və ideal siması qarşısında öz qüsurlarını və günahlarını anlamasıdır. Rus pravoslav xristianı özünün qüsurlarını, öz heçliyini dərk edərək təkcə onunla təskinlik tapır ki, onun qəlbində İsanın obrazı kimi gözəl və müqəddəs bir ideal var, onda bu ideala sonsuz məhəbbət var. “Mən eybəcərəm, mən bir heçəm, amma Səni sevirəm və öz məhəbbətimdə dönməzəm, bu da mənim son ümidim, son istinadgahımdır” - sanki o özünü, öz inamını bu cür dəyərləndirir. Məhz bu inam, bu məhəbbət də rus insanını, rus pravoslav xristianını uçurumun qaşında saxlayır, onu məhv olmağa qoymur. Dostoyevski qeyd edir ki, bəlkə də rus xalqının yeganə məhəbbəti İsa Məsihdir, rus xalqı onu xüsusi olaraq, yəni iztirab dərəcəsində sevir.

“Yazıçının gündəliyi”nin 1876-cı il fevral nömrəsində Dostoyevski rus dvoryanlığının rus xalqına münasibəti və ümumiyyətlə, dvoryanlarla xalqın mənəvi durumu barədə yazır. Bu məsələ Dostoyevski yaradıcılığının mərkəzi məsələlərindən biridir. Əslində, burada söhbət I Pyotrun islahatlarının iki yüz il sonrakı nəticələrindən gedir. Dostoyevskinin I Pyotrun islahatlarına və ümumiyyətlə, bu rus çarının rus tarixindəki roluna olan münasibəti mənfi idi. O, hesab edirdi ki, I Pyotr güclü bir imperiya yaratmış olsa da, rus xalqını, rus dvoryanlığını və rus dövlətini, dövlətçiliyini onların milli köklərindən ayırıb yad, əcnəbi dəyərlər üzərində qurmuşdu. Bu da müəyyən siyasi uğurlarla yanaşı ağır mənəvi və mədəni itkilərə gətirib çıxarmışdı. Hər şeydən əvvəl rus dvoryanlığı özünün milli köklərindən məhrum olaraq ağır mənəvi bəlalara düçar olmuşdu. Bu hal rus ədəbiyyatında özünü “artıq insanlar” deyilən dvoryan tiplərinin yaranmasında göstərmişdi. Bu barədə Dostoyevski sonralar, 1880-ci ildə Puşkin haqqındakı məşhur nitqində söz açmışdır. Burada isə o, bu məsələyə ötəri olaraq toxunur və qeyd edir ki, ədəbiyyatdakı bu tip, milli zəmindən ayrılıq bəlasından əziyyət çəkən tip ilk dəfə olaraq özünü Puşkinin Silviosunda (“Atəş” povestinin qəhrəmanında) göstərdi. Sonralar bu tipin ən bariz nümunəsi kimi Lermontovun Peçorini yarandı (“Əsrimizin qəhrəmanı”). Lermontovun bu romanını oxumuş sonrakı rus peçorinləri azmı eybəcərliklər törətmişdilər deyə yazıçı sual verir. Peçorin tipli insanların ümdə xüsusiyyəti ondan ibarətdir ki, onlar sevməyi bacarmırlar, amma buna rəğmən nifrət etməyi və nifrət doğuran addımlar atmağı yaxşı bacarırlar. Bunun da səbəbi ondan ibarətdir ki, bu adamlar milli zəmindən, milli mənəviyyatdan məhrum olmuş insanlardır. Rus xalqı isə, Dostoyevskinin fikrincə, uzun müddət nifrət etməyi bacarmır, lakin bunun müqabilində sevməyi və əfv etməyi gözəl bacarır. Bu onların dinindən, mənəviyyatından irəli gəlir.

Xalqın mənəvi cəhətdən dvoryanlıqdan həm əsaslı, həm güclü, həm mənəviyyatlı olması ona gətirib çıxarır ki, dahi rus şairi Puşkin, onun ardınca bütün sonrakı rus ədəbiyyatı xalqa müraciət edir və ədəbiyyatda xəlqilik deyilən bədii-estetik kateqoriya yaranır. Dostoyevski özü də Puşkinin açdığı bu yolla gedir və onunçün rus xalq mənəviyyatından uca heç nə yoxdur. Dostoyevski bütün yaradıcılığı boyu, xüsusilə də “Karamazov qardaşları” romanında, rus insanının həm bədii obrazını, həm də onun arxetipini yarada bilmişdir. Rus tipinin arxasında, onun qəlbinin dərinliklərində gizlənmiş olan rus arxetipini Dostoyevski qədər dərindən açan olmamışdır. Bu barədə “Karamazov qardaşları” romanı haqqında danışarkən söz açacağıq. Burada isə onu qeyd etməyi lazım bilirik ki, bu ideyanın, yəni rus tipinin arxasında gizlənmiş rus arxetipi barəsində fikrin şərhinə Dostoyevski məhz “Yazıçının gündəliyi”ndə toxunur. O qeyd edir ki, sadə rus xalqında olan o gözəlliyi süni şəkildə yaradılmış barbarlıqdan ayırmağı bacarmaq lazımdır. Bütün rus tarixi boyu bu xalq o qədər məcburi pozuntulara, təhriflərə məruz qalmışdır ki, hələ onun öz insanlıq simasını qoruyub saxlaya bilməsi təəccüb doğurur. Lakin rus xalqındakı bütün murdarçılıqlar, eybəcərliklər onun xarakterinin yalnız üst qatını, qabığını təşkil edir, dərindəki mənəvi mahiyyət isə sağlam qalır, məhv olmur, təhrifə də düçar olmur. Odur ki xalq arasından gözəl xarakterlər, tam mənada müqəddəslər çıxmışdır. Onların sırasında Dostoyevski din fədailərini, Sergi atanı, Feodosi Peçerski və Tixon Zadonskini göstərir. Məhz onlardır xalqın gözəl simasını, mənəvi mahiyyətini ifadə edənlər. Onlar nə Pyotrun sevdiyi Avropadan gəlmişlər, nə də kübar cəmiyyətinin mənəviyyatından yaranmışlar. Onlar birbaşa xalqın qəlbindən doğulmuşlar və bu qəlbin ifadəçiləridirlər. Rus xalqı deyəndə aşxanalarda içib sərxoş vəziyyətdə insan sifətini itirmiş, dava-dalaş salan, murdar söyüşlər söyən o zavallı tör-töküntüləri deyil, onların eybəcər zahiri simasını da deyil, daxili, gizli aləmini görmək lazımdır.

Dostoyevski dvoryanlardan danışaraq qeyd edir ki, bizlər, yəni ziyalı və ali təbəqənin nümayəndələri, o qədər də gözəl deyilik ki, özümüzü xalqın idealı hesab edək və ondan bizim kimi olmağı tələb edək. Kim yaxşıdır - biz, yoxsa xalq? Kim kimin dalınca getməlidir - xalq bizim, yoxsa biz xalqın? Bu suallara Dostoyevski belə cavab verir: biz xalqın qarşısında səcdə etməliyik, hər şeyi, - həm düzgün fikri, həm də gözəl obrazı ondan gözləməliyik, biz xalq həqiqəti qarşısında səcdə etməliyik və onu yeganə həqiqət kimi qəbul etməliyik. Bir sözlə, biz, yəni dvoryanlar, yolunu azmış, ata evini atıb yad diyarlara üz tutmuş naşükürlər, nəhayət ki, öz evimizə, doğma ocağımıza, ailəmizə qayıtmalıyıq, yəni Qərbin yad dəyərlərindən üz döndərib doğma xalqımızın mənəvi dəyərlərinə tapınmalıyıq. Biz iki yüz ildir ki öz doğma zəminindən ayrı düşmüş zümrə olaraq yenə də rus olduğumuzu unutmamışıq - bu da bizim böyük əməyimizdir. Biz xalqla birləşməliyik, amma bu şərtlə ki, xalq da bizdən bəzi şeyləri qəbul etməli və öyrənməlidir. Əks təqdirdə rus dvoryanlığı bir heç ola, öz simasını və dəyərini tamamilə itirə bilər. Dvoryanlığın gətirdiyi sivilizasiya xalqı poza bilərmi? - Dostoyevski bu təhlükəni rədd edir, ona görə ki, xalq elə nəhəng bir qüvvədir ki, onu heç nə poza bilməz. Sivilizasiya dvoryanları pozdu, rus dvoryanlığı sivilizasiyaya üz tutanda, elə ilk öncə pozuntulardan və pozğunluqdan başladı. Xalq üçün bu təhlükə yoxdur, çünki onun mənəvi əsasları möhkəmdir. Mənəvi əsaslar deyəndə Dostoyevski, əlbəttə, rus xalqının - onun içki düşkününün də, müqəddəsinin də qəlbindəki o sarsılmaz inamdan, pravoslav xristian dinindən, İsanın o gözəl və mübarək obrazından danışır. Bunları heç bir sivilizasiya poza bilməz.

Bugünkü Rusiya təsdiq etdi ki, iki yüzillik Pyotr kosmopolitizmi və yetmişillik sosializm və ateizm murdarçılığı rus xalqının qəlbindən o müqəddəs inamı çıxara bilmədi. Bu da xalqı yaşatdı. Xalqı məhv etmək üçün onun dinini və dilini əlindən almaq kifayət edərdi. Rus xalqı dinini də dilini də qoruyub saxlaya bildi.

“Yazıçının gündəliyi”ndə Dostoyevskini maraqlandıran məsələlərdən biri də intihar məsələsidir. Bu məsələyə yazıçı heç də sosial bir məsələ kimi deyil, mənəvi-etik, fəlsəfi və dini bir məsələ kimi baxır. Onun bədii əsərlərində də bu məsələ kəskin şəkildə və bütün dərinliyi və çılpaqlığı ilə qoyulur və açıqlanır. Bu cəhətdən xüsusilə “Şeytanlar” romanı müxtəlif növ intihar edənlərlə zəngindir. Bacısına cehiz almaq üçün illərlə yığdıqları pulu götürüb şəhərə gəlmiş və cehiz əvəzinə pulları içkiyə xərcləmiş cavan oğlanın intiharı bir cür intihardır, Allah olmaq istəyən və bu məqsədlə özünü öldürən Kirillovun intiharı başqa bir şeydir. Tam ağlı başında ola-ola, soyuq iradəylə öz həyatına son qoyan Stavroginin ölümü isə tamam fərqli bir intihardır.

Bu məsələyə Dostoyevski “Yazıçının gündəliyi”ndə də qayıdır və burada artıq intihar məsələsini bədii təxəyyülün məhsulu kimi deyil, həyat faktı kimi araşdırır. “Yazıçının gündəliyi”nin 1876-cı il oktyabr



buraxılışında Dostoyevski iki intihardan söz açır. Onlardan biri xaricdə baş vermiş mühacir Gertsenin qızının, digəri isə Rusiyada baş vermiş bir qızın intiharıdır.

Gertsenin qızı milliyyətcə rus olsa da, Avropada doğulmuş, orada böyüyüb təhsil almış bir gənc kimi, öz tərbiyəsi və mühiti etibarı ilə artıq rus deyildi. Yəni o, milli ruhdan, milli zəmindən və başlıcası, milli dindən ayrı düşmüş, mənəvi dayağı olmayan, bununla belə dərin elmə və təhsilə malik bir xanımdır. Həyat və ölüm haqqında, həyatın mənası və məqsədi barədə düşünən bu qız öz suallarına qaneedici cavab tapa bilmir. Tapa bilmir ona görə ki, bu cür sualların cavabı insan təfəkkürünün, insan biliyinin xaricindədir. Bu cür suallara cavabı dində, Allaha müraciətdə tapmaq olar. Bu zavallı qız isə yalnız və yalnız öz ağlının və savadının ümidinə qalmış bir şəxs kimi, verdiyi suala belə bir cavab tapır ki, yaşamaq mənasız və məqsədsiz bir şeydir və bu dünyada yaşamağa dəyməz. Bu əqli və məntiqi nəticə də onu intihara gətirib çıxarır.

İntihar edən ikinci qız hətta həddən artıq dindar və Allahpərəst bir məxluqdur. O, dördüncü mərtəbənin pəncərəsindən özünü atmış və onun qucağında ikona olduğu məlum olmuşdur. Deməli, ikonanı sinəsinə sıxıb özünü pəncərədən atan bu qızın intiharının səbəbi başqadır. Bu, çox həlim və müti bir qızın intiharıdır. O heç bir fəlsəfi suallarsız və paradoksal cavablarsız-filansız intihar edir. Sadəcə olaraq hiss edir və inanır ki, artıq yaşamaq mümkün deyil və Allah artıq onun yaşamasını istəmir və o da ali əmrə müntəzir kimi öz həyatına son qoyur. Amma burada səhv ondan ibarətdir ki, Allah heç vaxt heç kəsin yaşamamasını istəməz. Əksinə, Allah intiharı insan üçün ən ağır günah və cinayət hesab edir. Dostoyevski bu iki intiharı təsvir edərək qeyd edir ki, bu qızlar heç də bir-birinə oxşamırlar, sanki ayrı-ayrı planetlərdən gəlmişlər, amma onların hər ikisi rus idi.

Bu məqamda Dostoyevski intihar haqqında “Hökm” başlığı altında qısa bir publisistik yazı verir. Bu yazı, elə bilirəm ki, həyat faktı kimi deyil, yazıçının həyat müşahidələri əsasında gəldiyi qənaət kimi maraqlıdır. Burada söhbət artıq paradoksal düşüncəli, materialist fikirli cavan oğlandan gedir. Onun intiharı fəlsəfi intihar adlandırıla bilər. Yəni bu cavan oğlan həyat və insan barəsində, həyatın mənası barədə çox düşünür və bu məsələni bir yana çıxara bilməyərək, belə bir nəticəyə gəlir ki, təbiətin insanı düşünən bir məxluq kimi və onun iradəsinin əleyhinə olaraq yaratması son dərəcə mənasız və ədalətsiz bir şeydir. Əgər insan düşünməsəydi ki, o nə üçün yaşayır və sadəcə olaraq digər canlılar kimi yaşasaydı, bəlkə də xoşbəxt olardı. Amma düşünərək yaşamaq və düşünərək həyatın məqsədini və mənasını tapa bilməmək bədbəxtlikdir, ən ağır ümidsizlikdir. Bu paradoksçu deyir ki, təbiətin nə haqqı vardı ki, məni məndən xəbərsiz, mənim iradəmi nəzərə almadan özünün hansısa məqsədləri üçün yaratsın? Mən düşünürəm, dərk edirəm və mənasızlığı görərək iztirab çəkirəm, ancaq artıq iztirab çəkmək istəmirəm. Düşüncəm mənə deyir ki, bu iztirablar sondakı hansısa bir harmoniyanın rəhnidir. Amma mən öləndən sonra bu harmoniya mənim nəyimə gərəkdir? Əgər bəşəriyyət də axır-axırda ölümə məhkumdursa, onda mən kimin üçün iztirab çəkməliyəm və bu vəd edilən harmoniya kimə lazımdır? Əgər mən hansısa bir çiçək, ya da inək olsaydım, onda həyatdan və yaşamaqdan həzz alardım. Amma bir halda ki mən düşünən və dərk edən bir məxluqam və mövcüdiyyatın mənasızlığını anlayıram, onda mən həyatdan həzz ala bilmirəm, çünki bilirəm ki, sabah hər şey məhv olub gedəcək, hər şey əzəli xaosa çevriləcək. Axı mən bu gələcək heçliyi görə-görə necə xoşbəxt ola bilərəm? Axı bizim planet də əbədi deyildir, onun da həyatı əbədiyyət qarşısında bir andır. Bu şəraitdə, bu cür təsəvvürlə yaşamaqda davam etmək - bu, insana qarşı böyük hörmətsizlikdir. Paradoksçu belə bir gümana düşür ki, bəlkə də insan ona görə yer üzünə buraxılmışdır ki, sınaqdan keçirib görsünlər: belə bir məxluq yerdə yaşamağa uyğunlaşa bilərmi? Ona görə də bütün bunları götür-qoy edərək paradoksçu təbiəti mühakimə etmək qərarına gəlir. Bütün günahlar ondadır. Amma bir halda ki təbiəti cəzalandırmaq və ondan intiqam almaq mümkün deyil, onda insana yalnız özünü öldürmək qalır.

“Yazıçının gündəliyi”nin 1876-cı il noyabr buraxılışında Dostoyevski bu məqalə münasibətilə öz opponentlərindən birinə cavab yazaraq qeyd edir ki, bu zavallı paradoksçu ona görə həyatın mənasını görə bilmədi ki, o öz ruhuna və onun ölməzliyinə olan inamını itirmişdi. Əgər o, ruhun ölməzliyinə və əbədiliyinə inansaydı, onda bu dünyadakı iztirablar içində keçən müvəqqəti həyat ona mənasız görünməzdi və deməli, o, intihar etməzdi, nəyin bahasına olursa-olsun yaşayardı.

*Davamı səhifə 14-də*

# “Yazıçının gündəliyi”




*(Əvvəli səhifə 13-də)*

Deməli, bu cür ağıldan bəlanın, bu cür intiharların yeganə səbəbi inamın itirilməsi, ya da onun heç olmamasıdır, yəni həyata materialist və ateist baxışdır. Ali məqsədsiz, ali ideyasız, ali inamsız nə insan, nə də millət yaşaya bilər. Bu ali ideya və ali inam isə ruhun ölməzliyi ideyasıdır və ona olan inamdır. Bu cür ali ideyasız və inamsız insanların fəlakəti ondan ibarətdir ki, onlar ruhun əbədiliyinə və ölməzliyinə inanmırlar. Bu materialist, ateist düşüncəli paradoksçu daxilən humanist bir insandır, təkcə özünün deyil, həm də bəşəriyyətin dərdini çəkir, onun aqibəti barədə düşünür və özünü öldürməklə bəşəriyyətə olan məhəbbətini bir daha göstərmək istəyir. Bu, əsl faciəvi şəxsiyyətdir. Onun faciəsi ondadır ki, onun həqiqətə olan məhəbbəti onun öz fəlakətinə çevrilir. Onun faciəvi günahı isə ondadır ki, o, ilahi həqiqətin yerinə öz insani həqiqətini qoyur, ona görə də onun qəlbindəki humanizm, bəşəriyyətə qarşı olan məhəbbət elə bəşəriyyətə də qarşı nifrətə çevrilir. Dostoyevski bu hadisəni belə yekunlaşdırır ki, insanda bəşəriyyətə qarşı olan məhəbbət ali bir ideya olaraq insan ağlı üçün ən sirli-soraqlı, ən dərkolunmaz bir ideyadır. Onu ağıl gücünə, məntiqi yolla dərk və izah etmək mümkün deyil, çünki o, insan ağlının və insan fəlsəfəsinin imkanları xaricindədir. Bu ideyanı yalnız bir duyğu yolu ilə dərk etmək və ona haqq qazandırmaq olar ki, bu da ruhun ölməzliyinə olan inamdır. Bəşəriyyətə qarşı olan məhəbbət öz mənasını məhz bu inamda tapır. Ona görə də bu inam, yəni ruhun ölməzliyinə olan inam itirildikdən sonra intihar nəinki mümkün, hətta labüd və qaçılmaz olur. Buradan yazıçı başqa bir nəticəni hasil edir: əgər ruhi ölməzliyə inam insan həyatı üçün bu qədər vacibdirsə, deməli, bu inam insanın normal vəziyyəti və normal həyat tərzidir. Əgər belədirsə, onda ruhun ölməzliyi bir həqiqətdir. Bir sözlə, bəşəriyyət üçün ölməzlik ideyası - bu, həyatın, canlı həyatın özüdür, onun əsas və yekun düsturudur. Həyat deyilən o canlı varlıq öz dolğun və adekvat ifadəsini məntiqi düşüncədə və fəlsəfədə deyil, məhz həyat duyğusunda və inamda tapır. Bu da Dostoyevskinin canlı həyat və insan haqqındakı son qənaətidir. Bu inamı isə Dostoyevski yalnız xalq mənəviyyatında, xalqın ruhi həyatında görür və ziyalı təbəqəni, xalqdan ayrı düşmüş dvoryanlığı xalqla ruhən birləşməyə, xalqın həyat fəlsəfəsini dərk edib onu qəbul etməyə çağırır. Əks təqdirdə rus zadəganları özlərini tapa bilməyəcəklər. İndi onlar Avropayla Rusiyanın arasında qalıblar. “Yazıçının gündəliyi”nin 1877-ci il yanvar buraxılışında Dostoyevski məhz dvoryanlığı nəzərdə tutaraq yazır ki, Avropa bizim ikinci vətənimizdir, o, bizim üçün az qala Rusiya qədər əzizdir.

“Yazıçının gündəliyi”ndə Dostoyevskinin toxunduğu və böyük maraq doğuran məsələlərdən biri də onun Konstantinopol şəhəri, yəni türklərin əlində olan Bizans imperatorluğunun paytaxtı və onun gələcək aqibəti məsələsidir. Daim sülhün, mərhəmətin, xeyrin təbliğatçısı olan Dostoyevski Konstantinopol və qərb slavyanlarının türk istilasından xilas edilməsi məsələsinə gəlincə müharibəni, milli mənafeni müdafiə edir.

O, dönə-dönə təkrarlayır ki, Konstantinopol bizim olmalıdır, Konstantinopol tez-gec bizim olacaqdır və əgər bu, XIX əsrdə baş verməsə, deməli, XX əsrdə hökmən həyata keçəcəkdir. Özü də Dostoyevski anlayaraq və qeyd edərək ki, Konstantinopol geosiyasi baxımdan dünyanın mərkəzi və göbəyidir, ön plana bu məsələni deyil, məhz bu şəhərin pravoslav xristianlığının mərkəzi olması məsələsini çəkir. O, hesab edir ki, Moskva üçüncü Roma və pravoslav xristianlığının dayağı, qoruyucusu və mərkəzi olaraq qalacaqdır. Və heç vəchlə nə Rusiyanın, nə də xristianlığın mərkəzi Konstantinopola köçməməlidir. Amma bununla belə, Konstantinopol hökmən Rusiyaya mənsub olmalıdır və bu da pravoslav xristianlığının bütövlüyü və əbədi olaraq yaşaması üçün vacibdir. Dostoyevski qeyd edir ki, Konstantinopolun süqutundan sonra elə o saatdaca bütün şərq pravoslav dünyası öz nəzərlərini Rusiyaya sarı yönəltdi və öz gələcək ümidlərini ona bağladı. Rusiya isə təcili olaraq bu ümidlərə cavab olaraq tərəddüd etmədən Şərqin bayrağını qəbul etdi və Sarqradın ikibaşlı qartalını öz qədim gerbindən üstün tutdu. Yəni burada dini amil milli ənənələrdən güclü çıxdı. Ona görə də rus çarına indi pravoslav dünyasının çarı kimi baxırlar.

Dostoyevski hesab edir ki, Qərb slavyanlarının dörd yüz ildən artıq bir müddətdə türk əsarətində olmasının bir xeyri oldu ki, bu xalq öz pravoslav etiqadında daha da möhkəmləndi və bütün ümidlərini bu dinə bağladı. Bu da onları xilas etdi. İndi Avropada slavyan xalqlarının türk əsarətindən xilas olmaq üçün apardığı mücadilədə Rusiya kənar bir seyrçi olaraq qala bilməz və slavyanlarla birlikdə pravoslav dininin mərkəzi olan Konstantinopol da azad edilməlidir. Əks təqdirdə bu dinin tam azad və hakim din olması prosesi yarımçıq qalar.

Buradan göründüyü və həmişə olduğu kimi, Dostoyevskinin dinə necə böyük önəm verməsi bir daha özünü büruzə verir. O, dinə millətin və bütün slavyan xalqlarının ruhi mahiyyəti kimi baxır. Əgər bu mahiyyət məhv olsa, onda millət də yaşaya bilməz. Rus xalqının insan idealını Dostoyevski bir tərəfdən, müti, digər tərəfdən, rəşadətli bahadır olan İlya Murometsin simasında görür. O həm həqiqətin carçısı, həm də məzlumların havadarıdır. Yazıçı Rusiyanın da bir dövlət olaraq, bir imperiya olaraq missiyasını məhz bunda - həqiqətin carçısı olmaqda və zavallıların, zəiflərin xilaskarı olmaqda görür. Bu nöqteyi-nəzərdən də o, hesab edir ki, Rusiya Qərb slavyanlarının və eləcə də Konstantinopolun acınacaqlı vəziyyətinə biganə qala bilməz. Onların azad edilməsi Konstantinopolun azad edilməsilə bağlı olmalıdır.

Göründüyü kimi, tarix və tarixi hadisələr heç də Dostoyevski deyən kimi inkişaf etmədi - İstanbul türklərin olaraq qaldı və qalacaqdır. Bu da türk dünyasının gələcək və daha böyük qələbələrindən xəbər verən amildir. Rus imperiyası və Qərb dövlətləri Türkiyəni bir çox torpaqlardan məhrum etdi, amma İstanbulu onun əlindən ala bilmədi.

“Yazıçının gündəliyi”nin 1880-ci ildə çıxmış yeganə nömrəsi Dostoyevskinin Puşkin haqqında söylədiyi nitqə həsr edilmişdir. Bu nitq barəsində artıq yuxarıda söz açmışdıq. Burada isə oxucuları bu nitqin məzmunu ilə tanış etmək istərdik. Rus ədəbiyyatında Dostoyevskinin Puşkindən daha çox sevdiyi və daha yüksək dəyərləndirdiyi ikinci bir şair və yazıçı yoxdur. Puşkindən rus realizminin, rus ədəbi dilinin, ədəbiyyatda xəlqiliyin banisi kimi çoxları, o cümlədən də Belinski, söz açmışlar. Amma Dostoyevskinin Puşkin haqqında fikirləri müstəsna əhəmiyyətə malikdir. Yazıçının Puşkin haqqındakı fikirləri aşağıdakılardan ibarətdir:

Birincisi, Puşkin birinci olaraq rus dvoryan ziyalılarının dünyagörüşündəki, mənəviyyatındakı, ruhundakı ziddiyyətləri açıb göstərdi. Bu cür ziddiyyətli - həm müsbət, həm də mənfi - xüsusiyyətləri özündə birləşdirən, bununla da faciəvi aqibətə malik olan insan tipini Puşkin əvvəlcə romantik şəkildə Alekonun obrazında (“Qaraçılar”), sonra da realist planda Oneginin (“Yevgeni Onegin” romanında) şəxsiyyətində göstərmişdir. Bu tiplərdən sonra, onların ardınca rus ədəbiyyatında “artıq insanlar” deyilən qəhrəmanlar silsiləsi yaranmışdır ki, buraya da Dostoyevski Peçorini, Çiçikovu, Rudini, Lavretskini, Balkonskini aid edir. Dostoyevski bu tipli qəhrəmanların mənəvi mərəzlərinin rus cəmiyyəti üçün ən səciyyəvi olduğunu və Birinci Pyotrun islahatlarının və onun Rusiyanı avropalaşdırmaq siyasətinin nəticəsi hesab edir. Dostoyevskinin fikrincə, Puşkin yalnız bu mənəvi xəstəliyi göstərməklə kifayətlənməmiş, onun çarəsini də göstərmişdir. Bu çarəni ziyalı təbəqənin mənən xalqa yaxınlaşmasında və onun idealına tapınmasında görür.

İkincisi, Puşkin birinci olaraq rus xalqının, rus millətinin etik və estetik idealını göstərmiş və bu idealı bədii obraz şəklində ifadə etmişdir. Bu, “Yevgeni Onegin” mənzum romanının qadın qəhrəmanlarından biri olan Tatyana Larinadır. Onegindən fərqli olaraq bu qız özünü, öz mənəviyyatını, öz simpatiya və antipatiyalarını, nəhayət, öz mənəvi-etik prinsiplərini saxlaya və onları yad təsirlərdən qoruya bilmişdi, hərçənd Tatyana da yuxarı təbəqənin nümayəndəsi və ziyalı şəxs olaraq qərb yazıçılarının əsərlərini oxumuşdu. Amma onun qəlbində milli ruh, milli adət-ənənəyə olan etiqad daha güclü olmuşdu. Ona görə də Tatyana həyatının həlledici məqamında, artıq ərli qadın olanda və çox sevdiyi Onegin dizi üstdə ona yalvaranda, o, öz ərilə qalmağı üstün tutur və beləliklə də, özünün Allah qarşısında borcuna sədaqətli olduğunu nümayiş etdirir. Yəni şəxsi istəyi mənəvi borca qurban verir ki, bu da sırf xalq mənəviyyatından gələn bir hərəkətdir.

Üçüncüsü, Dostoyevskinin fikrincə, rus milləti qeyri millətlərdən fərqli olaraq ümumbəşəri bir həssaslığa malik olan xalq kimi dünya xalqlarının, ilk növbədə Avropa xalqlarının dərdlərini dərindən duya bilir, onları öz dərdi-səri kimi ürəyində yaşadır və o xalqları düşdükləri mənəvi bəladan xilas etmək istəyir və edəcəkdir. Rus xalqının bu milli xüsusiyyəti də öz ifadəsini ilk dəfə olaraq Puşkin dühasında tapmışdır. Ona görə də Puşkindən sonra rus xalqı öz bəşəri missiyasını daha da dərindən anlamağa başlamışdı.

Dördüncüsü, Puşkində başqa xalqların ruhi dünyasına daxil olmağı bacarmaq, onların bəlalarını və ağrılarını öz ürəyində hiss etmək qabiliyyəti, Dostoyevskinin fikrincə, məhz rus xalqından gəlir. Ona görə də Dostoyevski hesab edir ki, Rusiyanın Pyotrun timsalında Avropaya meyl etməsi də rus xalqının ruhundakı o ümumbəşərilik duyğusunun təzahürüdür. Ona görə də rus xalqı dünyada yeganə xalqdır ki, yeni söz deməyə, yeni yol göstərməyə və bəşəriyyəti onun düşdüyü mənəviyyatsızlıq bəlasından qurtarmağa qadirdir. Yalnız rus xalqı ümumbəşəri birliyə, qardaşlıq məhəbbətinə can atan yeganə xalqdır. Ona görə də Dostoyevski hesab edir ki, rus xalqını ziyalı təbəqəsinin səviyyəsinə (mənəvi cəhətdən) yüksəltmək gərəkdir. “Əsl rus olmaq, tamamilə rus olmaq, bəlkə də yalnız (nəhayət, bunun altından xətt çəkin) bütün insanlara qardaş olmaq, lap istəyirsinizsə, ümuminsan olmaq deməkdir”. “ bizim aqibətimiz məhz ümumbəşərilikdir, özü də qılınc gücünə deyil, qardaşlıq gücünə və bizim insanları birləşdirməkçün can atdığımız qardaşlıq istəyinə əsaslanan ümumbəşərilikdir”. “Ah, Avropa xalqları onların bizimçün nə dərəcədə əziz olduqlarını bilmirlər!” “Və sonralar gələcək rus nəsli hamısı bir nəfər kimi başa düşəcəklər ki, əsl rus olmaq məhz Avropa ziddiyyətlərinə birdəfəlik olaraq barışıq gətirmək, öz rus qəlbində Avropa qüssəsinin çıxış yolunu göstərmək deməkdir ”. Axı Puşkin öz qəlbində dünya xalqlarına yer tapa bilmişdi, deməli, rus xalqı da öz dahisi kimi və İsanın vəsiyyətlərinə əməl edərək dünya xalqlarını öz sevən ürəyində, qardaşlıq ailəsində birləşdirməyə qadirdir.

Rusiya Dostoyevskinin inandığı kimi, İsa Məsihin göstərdiyi yolla getmiş olsaydı, əlbəttə, onun tarixi də, bu günü də başqa cür olardı.